


# İqtisadi və struktur islahatları ilkin uğurlu nəticələr verir

**Son illər dünya iqtisadiyyatında baş verən qeyri-müəyyənliklər, qlobal maliyyə bazarlarındakı qeyri-sabitlik nəticəsində, demək olar ki, heç bir ölkədə iqtisadi artım müşahidə edilmir. Dünyanı bürüyən mürəkkəb siyasi və iqtisadi proseslər, fond birjalarındakı təlatümlər iqtisadi artıma mənfi təsir göstərən əsas amillərdəndir. Təsadüfi deyil ki, artım proqnozları beynəlxalq iqtisadi qurumlar tərəfindən də aşağı salınıb. Bu faktın özü də hazırda beynəlxalq iqtisadi və maliyyə durumunda mövcud olan mürəkkəbliyi təsdiq edir.**

Azərbaycan da dünya iqtisadiyyatının bir hissəsidir. Ancaq xüsusi qeyd etməliyik ki, Azərbaycan dünya iqtisadi böhranından ən az itkilərlə çıxan ölkələrdən biridir. Bunu beynəlxalq iqtisadi qurumlar da təsdiq edir. Bunun əsas səbəblərindən biri odur ki, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasət respublikamızın zəngin enerji resurslarının dünya bazarlarına nəqlinə imkan verən layihələrin reallaşdırılmasına və ölkəmizin gəlirlərinin artmasına gətirib çıxarmışdır. Son dövrlərin mürəkkəb qlobal iqtisadi prosesləri, neftin qiymətinin düşməsi Azərbaycanın iqtisadi inkişafına təsirsiz ötüşməsə də, 2016-cı ilin birinci rübündə qeyri-neft sənayesinin beş faiz artması müsbət haldır.

Beynəlxalq miqyasda iqtisadi böhranın davam etdiyi bir şəraitdə Azərbaycanda qeyri-neft sektorunda müsbət nəticələrin əldə olunmasının əsas səbəbi, qeyd etdiyimiz kimi, ölkə rəhbərliyinin başladığı yeni iqtisadi və struktur islahatlarıdır. Məlum olduğu kimi, ötən ilin sonlarına yaxın neftin qiymətinin kəskin aşağı düşməsindən sonra yaranan vəziyyət ölkəmizdə də iqtisadiyyatda gələcək neqativ ssenarilərə qarşı qoruyucu və qabaqlayıcı mexanizmlərin həyata keçirilməsini və gücləndirilməsini zəruri etmişdi. Bu sırada iqtisadiyyatın inkişafının davamlı olmasına, iqtisadi azalmanın qarşısının alınmasına xidmət edəcək antiböhran xarakterli xüsusi tədbirlər, həmçinin milli iqtisadiyyatın inkişafını yeni şəraitə çevik uyğunlaşdırmaq böyük əhəmiyyət kəsb edirdi. Bu mənada təsadüfi deyil ki, milli iqtisadiyyatın dayanıqlığının gücləndirilməsi çağırışları daha da aktuallaşmışdı. Bu ilin əvvəlində Prezident İlham Əliyev ümumdünya iqtisadi böhranının Azərbaycana mənfi təsirlərinin müşahidə olunduğu və enerji resurslarının qiymətlərinin kəskin şəkildə aşağı düşdüyü hazırkı dövrdə həyata keçiriləcək yeni iqtisadi siyasətin əsas konturlarını müəyyən etdi. Dövlət başçısı görüləcək işlərlə bağlı rəsmi strukturlara müvafiq tapşırıqlar verdi. Yeni iqtisadi siyasətlə əlaqədar həyata keçiriləcək islahatların istiqamətlərini müəyyən etdi. Bunlardan biri iqtisadi sektorun inkişafına yol açacaq tədbirlər kompleksi idi. Xüsusən hazırkı dövrdə yaranmış vəziyyətin ölkəyə mənfi təsirinin qarşısını almaq və prioritet sahə hesab olunan qeyri-neft sektorunun daha sürətli inkişafını təmin etmək üçün əlavə təsirli mexanizmlərin işə salınması mühüm əhəmiyyət kəsb edirdi.

Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bu məsələyə toxunan Prezident İlham Əliyev nəzərdə tutulan islahatların sürətlə aparıldığını bildirdi: *"Birinci rübdə iqtisadi islahatlar daha da sürətlə aparılmışdır. Ümumiyyətlə, mən bildirməliyəm ki, 2016-cı il dərin iqtisadi islahatlar ili olacaqdır. İlin əvvəlindən biz bu istiqamətdə çox fəal işləyirik. Bir çox sərəncamlar, qanunlar imzalanmış və qəbul edilmişdir. Biznes mühitinin yaxşılaşdırılması, ixrac potensialımızın artırılması, xarici sərmayənin Azərbaycana cəlb edilməsi, yerli istehsalın artırılması - bütün bu istiqamətlər üzrə çox ciddi qərarlar qəbul edilmişdir. Maliyyə nizam-intizamı, şəffaflıq - demək istəyirəm ki, bundan sonra da bu istiqamətdə əlavə tədbirlər görüləcək"*.

Reallıq da ondan ibarətdir ki, ölkə rəhbərliyinin bu ilin ilk rübündə həyata keçirdiyi operativ tədbirlər, islahatlar sayəsində bütün iqtisadi risklər minimum səviyyəyə endirilib. Xüsusən qeyri-neft sektorunun, sahibkarlığın inkişafı və maliyyə nizam-intizamının gücləndirilməsi məqsədilə islahatlar daha sürətlə aparılıb. Bu məqsədlə qanunlar qəbul olunub, sərəncamlar imzalanıb. Bunlardan biri Prezident İlham Əliyevin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli sərəncamıdır. Sərəncama əsasən qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, bu sahədə əlverişli şəraitin daha da genişləndirilməsi məqsədilə bir sıra vacib tədbirlərin həyata keçirilməsi qarşıya vəzifə qoyulub.

Yeni islahatların bir istiqaməti də neqativ hallara qarşı mübarizənin gücləndirilməsidir. Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasının yaradılması bu məqsədə xidmət edən addımlardan biridir. Apelyasiya Şurasının yaradılmasında məqsəd sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çoxpilləliyin təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqanlara şikayətlərin verilməsi mexanizminin təkmilləşdirilməsidir. Yeri gəlmişkən Prezidentin fərmanı ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında da apelyasiya şuraları yaradılıb.

Sahibkarlığın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən siyasətin davamı olaraq son zamanlar Azərbaycan Prezidentinin təşəbbüsü ilə sahibkarlıq sahəsində aparılan yoxlamalar dayandırılıb, lisenziyalaşdırma sistemi təkmilləşdirilib, investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması sahəsində mühüm qərarlar qəbul edilib. Atılmış addımlar özəl bölmənin inkişafında mühüm əhəmiyyət kəsb etməklə yanaşı, biznes və investisiya mühitinin yaxşılaşdırılması baxımından da önəmlidir. Təkcə lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi sayəsində lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, lisenziyalar müddətsiz müəyyən olunub, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləği təxminən 2 dəfə azaldılıb.

Müvafiq qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən də prioritet hesab olunan sahələrdə investisiya fəaliyyəti həyata keçirən sahibkarların investisiya təşviqi sənədini aldıqları andan idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə gömrük rüsumlarından azad olunub. Eyni zamanda, sahibkarlar investisiya təşviqi sənədinə əsasən 7 il müddətinə fiziki şəxslərin gəlirinin və hüquqi şəxslərin mənfəətinin 50 faizinə görə vergidən, həmçinin əmlak və torpaq vergisindən, müvafiq təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə ƏDV-dən azaddır. Prezident İlham Əliyevin təşəbbüsü ilə "Dövlət satınalmaları haqqında" qanunda edilmiş dəyişikliyə uyğun olaraq isə yerli sahibkarlara güzəştin 20 faizədək artırılması onların tender layihələrini qazanmalarına, yerli istehsalın genişlənməsinə əlavə dəstək verəcək.

İslahatların bir hissəsini iqtisadi və maliyyə sektorlarında idarəçiliyin təkmilləşdirilməsi, şəffaflığın təmin edilməsi təşkil edir. Bu istiqamətdə atılan addımlardan biri Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılmasıdır. Bu qurumun yaradılmasında məqsəd ölkəmizin qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsini, həmçinin bu sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etməkdir.

Prezident İlham Əliyevin sərəncam və fərmanları ilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin, Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması idarəetmənin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən struktur islahatlarının tərkib hissəsidir. Bütün bunlar idarəetmə sistemində daha çevik və operativ mexanizmlərin tətbiqi ilə müşayiət olunacaq.

Təbii ki, islahatlarla bağlı atılan addımlar bununla bitmir. Lakin bütövlükdə bu ilin birinci rübündə görülən işlər təsdiq edir ki, dünya iqtisadiyyatında baş verən proseslərlə əlaqədar ölkə iqtisadiyyatının dayanıqlığının daha da möhkəmləndirilməsi üçün Prezident İlham Əliyevin islahatlar siyasəti çərçivəsində çevik iqtisadi idarəetmənin təşkili, biznes mühitinin yaxşılaşdırılması, investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***